AZƏRBAYCAN RESPUBLİKASI

TƏHSİL NAZİRLİYİ

# Azərbaycan Respublikası peşə məktəbi

# və peşə liseyinin nümunəvi

# ƏSASNAMƏSİ

AZƏRBAYCAN RESPUBLİKASI PEŞƏ MƏKTƏBİ VƏ PEŞƏ LİSEYİNİN NÜMUNƏVİ ƏSASNAMƏSİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikasının Nazirlər Kabineti

**QƏRARA ALIR:**

Azəbaycan Respublikası "Təhsil Qanunu"nun 30 – cu maddəsinə müvafiq olaraq, peşə məktəbi və peşə liseyinin nümunəvi Əsasnaməsi təsdiq edilsin (əlavə olunur).

***S.Hüseynov***
***Azərbaycan Respublikasının***
***Baş naziri***
***Bakı şəhəri, 3 avqust 1994-cü il***
***№ 291***

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRİNİN ƏMRİ

№ 523 23 avqust 1994-cü il

AZƏRBAYCAN RESPUBLIKASI PEŞƏ MƏKTƏBI VƏ PEŞƏ LISEYININ ÜMUNƏVI ƏSASNAMƏSİ HAQQINDA

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası peşə məktəbi və peşə liseyinin nümunəvi Əsasnaməsinin qəbul edilməsi haqqında" 3 avqust 1994 – cü il 291 N – li qərarını elan edirəm.
Azərbaycan Respublikası Nazirlər Kabineti

QƏRARA ALIR:

Azəbaycan Respublikası "Təhsil Qanunu"nun 30 – cu maddəsinə müvafiq olaraq, peşə məktəbi və peşə liseyinin nümunəvi Əsasnaməsi təsdiq edilsin (əlavə olunur).

***S.Hüseynov***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin həmin qərarının icrası ilə əlaqədar**

**Ə M R   E D İ R Ə M:**

1. "Azərbaycan Respublikası peşə məktəbi və peşə liseyinin nümunəvi Əsasnaməsinin təsdiq edilməsi haqqında" 3 avqust 1994-cü il tarixli 291 N-li qərarı rəhbərlik və icra üçün qəbul edilsin.

2. Əmrlə Nazirlər Kabinetinin "Azərbaycan Respublikası peşə məktəbi və peşə liseyinin nümunəvi Əsasnaməsinin təsdiq edilməsi haqqında" 3 avqust 1994-cü il tarixli 291 N-li qərarı bütün texniki peşə məktəblərinə göndərilsin.

3. Naxçıvan MR Təhsil Nazirliyinə, Gəncə şəhər Təhsil İdarəsinə, Sumqayıt şəhər Təhsil şöbəsinə və texniki peşə məktəblərinə:

- Əsasnamənin bütün pedaqoji kollektivlərdə, eləcə də şagird və valideynlər tərəfindən öyrənilməsini təşkil etsinlər.
- Əmrin yerinə yetirilməsi ilə əlaqədar tədbirlər hazırlayıb həyata keçirsinlər.

4. Ümumi orta, texniki peşə təhsili və məktəbəqədər tədris müəssisələri baş idarəsi (A.Muradov, Z.Abdullayev) və texniki peşə təhsili üzrə Respublika Tədris Metodika Kabineti (Ə.Quliyev) əmrin yerinə yetirilməsində texniki peşə məktəblərinə əməli kömək göstərsinlər.

5. Proqram –metodika şöbəsi (Ə.Quliyev) və "Öyrətmən" nəşriyyatı (B.Axundov) əmrin Əsasnamə ilə birlikdə 250 tirajla çap olunmasını təmin etsinlər.

6. Əmr Əsasnamə ilə birlikdə "Azərbaycan müəllimi" qəzetində dərc edilsin.

7. Əmrin icrasına nəzarət nazir müavini İ.Həsənova həvalə edilsin.

L. Rəsulova.

Azərbaycan Respublikası Nazilər Kabinetinin 3 avqust 1994-cü il tarixli 291 saylı qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikası peşə məktəbi və peşə liseyinin nümunəvi**
**ƏSASNAMƏSİ**

**1. Ümumi müddəalar**

1. Peşə məktəbi və peşə liseyi müxtəlif peşələr üzrə sənətkarlara olan tələbatı ödəyən, həmçinin Azərbaycanın unudulmuş və sıradan çıxan nadir və ənənəvi sənətkarlıq sahələrinin dirçəlməsinə yönələn ilkin peşə təhsili müəssisələrdir.

Peşə məktəbi və peşə liseyi özlərinin inkişaf hüdudlarına görə xalq təsərrüfatının ən mühüm sahələri üzrə ixtisaslı fəhlələrin peşə hazırlığı üçün sahələrarası, sahəvi vəregional mərkəz ola bilərlər.

2. Peşə məktəbi icbari təhsili başa vurduqdan sonra orta təhsil almaq istəməyən gənclərə 1-2 il ərzində peşə təhsili verir. Orta təhsilli gənclər də arzularına uygun olaraq peşə məktəblərində təhsil ala bilərlər. Peşə məktəblərində orta təhsil verilmir.

Ayrı-ayrı hallarda peşə məktəblərində əsas təhsili olmayanların da peşə təhsili almasına şərait yaradılır.

3. Peşə liseyində əsas təshil bazasına malik olan gənclərə 3-4 il ərzində nisbətən mürəkkəb peşələr öyrədilməklə yanaşı, onlara orta təhsil də verilir. Peşə liseyində ümumi orta təhsili başa vurmuş gənclər üçün də müvafiq qruplar təşkil olunur.

4. Ayrı-ayrı rayonlarda və şəhərlərdə müxtəlif peşələr üzrə sənətkarlar hazırlamaq məqsədilə qeyri-dövlət peşə liseyləri təhsil qanunvericiliyində nəzərdə tutulmuş qaydada yaradılır, yenidən təşkil olunur və ləğv edilir. Bu müəssisələrin təsisçiləri təhsilin dövlət standartlarına müvafiq qurulmasına məsuliyyət daşıyırlar. Peşə məktəbi və peşə liseyi dövlət sifarişi, həmçinin idarə, müəssisə, təşkilat, habelə ayrı-ayrı vətəndaşlarla bağlanmış müqavilələr əsasında fəaliyyət göstərir.

5. Peşə məktəbi və peşə liseyinin vəzifələri:

- vətəndaşların peşə təhsilinə, zəruri ixtisaslara yiyələnməsi və onların ictimai faydalı, məhsuldar əməyə cəlb edilməsi üçün şərait yaratmaqdan;
- vətəndaşların yüksək keyfiyyətli peşə və ümumtəhsil hazırlığını təmin etməkdən;
- elmi-texniki tərəqqinin tələblərinə müvafiq müəssisə və təşkilatların tələbatının ödənilməsi məqsədilə kadrlar hazırlamaqdan, onların peşə yönümünü dəyişdirmək və ixtisaslarını artırmaq ehtiyaclarını ödəməkdən ibarətdir.

6. Peşəməktəbi və peşə liseyi şagirdlərinin sosial müdafiəsini, onların müvafiq peşə təhsili almasını, tədris prosesinin səmərəli təşkilini, habelə təlim-tərbiyə işlərinin keyfiyyətini təmin edir.

7. Peşə məktəbi və peşə liseyi tərkibində axşam (növbəli) şöbələri (qrupları), habelə filiallar da təşkil edilə bilər.

8. Dövlət tabeçiliyində olan peşə məktəbləri və peşə liseyləri Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən yaradılır, yenidən təşkil edilir və ləğv edilir.

9. Dövlət büdcəsinin maliyyələşdirilən peşə məktəbləri və peşə liseyləri bilavasitə Azərbaycan Respublikası Təhsil Nazirliyinə, respublika nazirlikləri və idarələrinin, müəssisə və təşkilatlarının nəzdində fəaliyyət göstərən peşə məktəbləri və peşə liseyləri bilavasitə həmin nazirlik, idarə, müəssisə və təşkilatlara tabedirlər.

Mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq respublikada fəaliyyət göstərən bütün peşə məktəbləri və peşə

liseylərində təhsil qanunvericiliyinin icrasına nəzarət Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən həyata keçirilir.

10. İxtisaslı fəhlə kadrlarının hazırlanmasına dair sifariş verən müəssisə, təşkilat və idarələr peşə məktəbi və peşə liseyi üçün baza müəssisəsi sayıla bilər.

Baza müəssisəsi ilə peşə məktəbi və peşə liseyinin birgə fəaliyyəti Respublika Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş Əsasnamə ilə tənzim olunur.

11. Dövlət büdcəsindən maliyyələşdirilən peşə məktəbləri və peşə liseylərində vətəndaşlar pulsuz təhsil almaq hüququna malikdirlər. Peşə məktəbi və peşə liseylərində fəhlə kadrlarının hazırlığı baza müəssisəsinin vəsaiti hesabına aparıla bilər. Bundan əlavə vətəndaşların arzusu ilə pullu qruplar da təşkil edilə bilər.

12. Peşə məktəbləri və peşə liseyləri öz fəaliyyətini demokratiya,aşkarlıq və özünüidarə prinsiplərinə, Azərbaycan Respublikası Konstitusiyasına, Təhsil Qanununa, bu Əsasnaməyə və digər normativ sənədlərə müvafiq surətdə həyata keçirir.

Peşə məktəbi və peşə liseyi hüquqi şəxs olmaqla, onun banklarda hesablaşma hesabı, adı əks olunan möhürü vardır.

13. Dövlət idarəçiliyində olan peşə məktəbi və peşə liseyi təhsil qanunvericiliyi və təlim-tərbiyə müəssisəsinin buna müvafiq olan Nizamnaməsi əsasında idarə olunur. Nizamnamə pedaqoji şurada təsdiq olunur və Təhsil Nazirliyində qeydiyyatdan keçirilir.

14. Peşə məktəbi və peşə liseyində təlim dili türk dilidir. Bununla yanaşı, cəmiyyətin tələbinə, vətəndaşların və təhsil müəssisəsi təsisçilərinin arzusuna müvafiq olaraq peşə məktəbləri və peşə liseyləri bazasında, Dövlət standartları çərçivəsində az saylı xalqların dillərində, həmçinin xarici dillərdə də təhsil aparıla bilər.

## II. Təlim-tərbiyə prosesinin təşkili

15. Peşə məktəbi və peşə liseyində ixtisaslı fəhlələrin hazırlanması, ixtisasının artırılması və yenidən hazırlanması Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə

razılaşdırılmış və Respublika Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş peşələrin siyahısı əsasında həyata keçirilir.

Peşə məktəbi və peşə liseyi peşələrin siyahısına düşməyən yeni peşələr üzrə fəhlə hazırlığını yalnız Respublika Təhsil Nazirliyinin rəsmi razılığı əsasında apara bilərlər.

16. Peşə təhsilinin məzmunu Respublika Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş tədris plan və proqramlarında, dərsliklərdə və s. Tədris sənədlərində əks olunur.

17. İstehsalat təlimi və istehsalat təcrübəsi tədris emalatxanalarında, laboratoriyalarda, poliqonlarda, məktəblərin təlim təsərüffatlarında, həmçinin müəssisə sexlərində, tədris sahələrində tikinti obyektlərində sahə və fermalarda həyata kecirilir

18. Peşə məktəbi və peşə liseyi şagirdləri istehsalat təlimi prosesində tədris plan və proqramları tələblərinə uyğun olaraq sənaye və kənd təsərrüfatı məhsulları, xalq istehlak malları istehsal edir, müxtəlif xidmətlər göstərirlər.

19.Peşə məktəbində və peşə liseyində təlim-tərbiyə prosesi müəllim-şagird münasibətlərinin demokratikləşdirilməsi və humanistləşdirilməsi prinsipləri əsasında qurulur. Dərslərlə yanaşı mühazirə və seminar məşğələlərindən, söhbətlərdən, laboratoriya – praktikumlardan, müstəqil tədqiqat-praktiki işlərdən, televiziya və avtomatlaşdırılmış tədris kurslarından, müəssisələrə ekskursiyalardan, bilik, bacarıq və vərdişlərə fəal yiyələnməyin digər formalarından geniş istifadə olunur.

Təlimin metodları müəllimlər və istehsalat təlimi ustaları tərəfindən müəyyən edilir.

20. Peşə məktəbində və peşə liseyində şagirdlərin yaş, cins, fərdi xüsusiyyətləri və maraqları nəzərə alınmaqla sistemli və mütəşəkkil şəkildə sinifdənxaric və məktəbdənkənar tədbirlər keçirilir.

21. Peşə məktəbi və peşə liseyində əsas təhsil bazasında təşkil olunmuş qruplarda dərslər bir qayda olaraq sentyabrın 1-dən başlanır və iyulun 1-dən gec olmayaraq qurtarır.

Təhsil müddətindən asılı olmayaraq ixtisaslı fəhlə kadrları hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılması

üzrə təşkil olunmuş qruplarda isə dərslər tədris qrupları komplektləşdirildikdən sonra başlayır.

22. Peşə məktəbi və peşə liseyində nəzəri məşğələləri bir qayda olaraq 45 dəqiqə, məşğələlərarası fasilə isə tədris müəssisələrinin imkanı nəzərə alınmaqla 5-10 dəqiqə müəyyənləşdirilir. Tədris emalatxanalarında istehsalat təlimi məşğələləri zamanı təlimin birinci ilində hər 50 dəqiqədən, təlimin ikinci və sonrakı illərində 1saat 50 dəqiqədən sonra 10 dəqiqə fasilə verilir.

Məşğələlərin dördüncü saatından sonra məktəbin şagird kontingentinin sayı və yeməkxananın imkanı nəzərə alınmaqla bir saata qədər nahar fasiləsi verilir.

Şagirdlərin dərs zamanı tədris prosesi ilə bağlı olmayan işlərə cəlb edilməsi qadağandır.

23. Peşə məktəbi və peşə liseyinin tədris qruplarında orta sıxlıq, maddi texniki bazadan asılı olaraq 15 nəfər müəyyən edilir. Qrupların iki yerə bölünməsi müvafiq normativ sənədlə tənzim olunur. Xarici dil dərslərində, o cümlədən təlim qeyri dillərdə aparılan qruplarda Azərbaycan dili dərslərində, həmçinin peşə-ixtisas fənləri, istehsalat təlimi və bədən tərbiyəsi dərslərində qruplar iki yerə bölünür.

24[1]. Şagirdlərin tədris proqramlarını mənimsəmələri 9 bal sistemi ilə qiymətləndirilir. Qiymətləndirmə yarımillər üzrə aparılır. İlin axırında yekun qiyməti çıxarılır.

25. Buraxılış ixtisas imtahanlarına tam təlim kursunu bütün nəzəri təlim fənlərindən və istehsalat təlimindən müvəffəq yekun qiyməti alan şagirdlər buraxılırlar.

Şagirdlər xəstəliyinə görə tibbi komissiyanın qərarına əsasən imtahandan azad edilə bilərlər. İmtahandan azad olunmaq hüququ verən xəstəliklərin siyahısı Respublika Təhsil Nazirliyi və Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilir.

26. Peşəməktəbi və peşə liseyində proqramların mənimsənilmə səviyyəsi müvafiq Əsasnamə əsasında attestasiya keçirilməsi ilə başa çatdırılır. Aralıq mərhələlərdə şagirdlərin

---

[1] Qeyd: Biliyi 9 bal sistemi ilə qiymətləndirmək 1994-95-ci dərs ilindən tətbiq ediləcək

attestasiyasının forması, qaydası və müddəti Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş normativ sənədlərlə müəyyən edilir.

27. Şagirdlər və məzunlara peşə dərəcələrinin (kateqoriyalarının) verilməsi qaydaları Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş normativ sənədlər əsasında həyata keçirilir.

## III. Peşə məktəbi və peşə liseyi şagirdləri

28. Peşə məktəbi və peşə liseyinə şagird qəbulu Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş qəbul qaydalarina uyğun şəkildə keçirilir.

29. Peşə məktəbi və peşə liseyi şagirdlərərinin maddi təminatının normaları Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilir. Ehtiyacı olan şagirdlər pulsuz yataqxana ilə təmin olunurlar.

Şagirdlərə istehsalat təlimi və istehsalat təcrübəsi dövründə qazandıqları pul vəsaitindən müəyyən edilmiş qaydada tam əmək haqqı verilir.

30. şagirdlərə tibbi xidmət məktəblərə təhkim edilmiş poliklinikalarda, sağlamlıq məntəqələri və başqa müalicə - profilaktika müəssisələri tərəfindən həyata keçirilir. Tibbi heyət şagirdlərin sağlamlığının qorunmasına və möhkələndirilməsinə, fiziki inkişafına, uğurlu təhsilinə və tərbiyəsinə kömək məqsədi ilə dispanserizasiya, müalicə - profilaktika işləri aparır və məktəbin müdiriyyəti ilə birlikdə sanitar-gigiyenik tədbirlər həyata keçirir.

31. Şagirdlər məktəb kollektivinin üzvüdürlər, təlim-tərbiyə və istehsalat məsələlərinin həllində, asudə vaxtın və istirahətin təşkilində iştirak edirlər.

Şagirdlər:

- ekstern yolu ilə fənlər üzrə imtahanlar, buraxılış ixtisas imtahanları vermək, ehtiyac olduqda fərdi proqram üzrə təhsil almaq;
- öyrənmək üçün fakultətivlər və məcburi olmayan fənlər seçmək;

- məktəbin tədris-istehsalat və mədəni-idman bazasından istifadə etmək;

- gənclərdə siyasi və əxlaqi mədəniyyət, yaradıcılıq, mənəvi və fiziki kamilliyin formalaşmasına kömək edən özfəaliyyət birliklərinə daxil olmaq;

- məktəbin nəzdində yaradılmış əmək birliklərində, təsərrüfat hesablı emalatxanalarda və kiçik müəssisələrdə tədrisdən kənar vaxtlarda işləmək;

- məktəbin rəhbər və mühəndis – pedaqoji işçilərinin, ictimai təşkilatların fəaliyyətini yaxşılaşdırmaq barədə təkliflər vermək və onların reallaşdırılmasına nail olmaq hüquqlarına malikdirlər.

32. Peşə məktəbi və peşə liseyi şagirdlərinin vəzifələri:

- özlərini yüksək yaradıcı məhsuldar əməyə hazırlamaqdan;

- peşə ustalığına, elmlərin əsaslarına yiyələnmək, öz bacarıqlarını inkişaf etdirmək, bilikləri müstəqil surətdə artırmaq və təcrübədə həyata keçirmək vərdişləri qazanmaq, tədris, əmək və istehsalat intizamını, gigiyena və əməyin mühafizəsi tələblərinə əməl etmək, ictimai həyatda fəal iştirak etməkdən;

- dövlət mülkiyyətini qorumaq və möhkəmləndirmək, təbiəti mühafizə etmək və onun sərvətlərini artırmaqdan;

- sağlam həyat tərzi keçirmək, cəmiyyətə zidd olan bütün təzahürlərə qarşı barışmaz olmaq, sağlamlığını möhkəmləndirmək, bədən tərbiyəsi ilə məşğul olmaq, vətənin müdafiəsinə hazır olmaqdan ibarətdir.

33. Peşə məktəbi və peşə liseyi şagirdləri üçün təhsildə və əməkdə xüsusi nailiyyətlərə, ictimai həyatda fəal iştirakına görə maddi və mənəvi mükafatların formaları müəyyən edilir. Mükafatlandırma formasının seçilməsi məktəbin rəhbərliyi tərəfindən şagird və mühəndis pedaqoji kollektivinin təqdimatı ilə həyata keçirilir.

34. Davranış qayda və normalarının müntəzəm pozulmasına, üzürsüz səbəbdən dərslərin buraxılmasına, pis oxumağa və təhsildən yayınmağa görə şagirdlərə məktəbdən xaric edilməyə qədər intizam tədbirləri görülə bilər. Məktəbə şüurlu

surətdə maddi ziyan vurduqda onun dəyəri müəyyən olunmuş qaydada günahkardan tutulur.

35. Peşə məktəbini orta təhsil bazasında bitirən şagirdlərə və peşə liseyinin bütün məzunlarına müəyyən olunmuş nümunədə diplom verilir. Peşə məktəbini bitirən, ümumi ortatəhsili olmayan şəxslər isə müvafiq ixtisas almasına dair attestat alırlar. Xüsusi təşkilat və idarələrin nəzarəti altında olan obyektlərdə işlə əlaqədar peşələrə yiyələnənlərə diplomla (attestatla) yanaşı göstərilən obyektlərdə işə buraxılmaq üçün müvaviq sənədlər verilir.

Məktəbin məzunlarına verilən ixtisas dərəcələri, kateqoriyalar bütün müəssisələr üçün qüvvədədir və onlar işə qəbul edilərkən aşağı salına bilməz.

Məzunlara diplom və attesatların verilməsi qaydalarını Azərbaycan Respublikası Təhsil Nazirliyi müəyyən edir.

36. Peşə məktəbi və peşə liseyinin əyani təhsil formasını bitirən şəxslər aldıqları peşəyə və ixtisasa uyğun olaraq müqavilə əsasında sifarişçi təşkilat, müəssisə və idarələrdə işlə təmin olunurlar.

37. Peşə məktəbini və peşə liseyini əyani təhsil formasında bitirən şəxslərin təhsil müddəti iş stajı hesab olunur.

38. Valideynlərin (onları əvəz edənlərin) hüquqları aşağıdakılardır:

Uşaqlar üçün peşə seçmək, ictimai özünüidarə orqanlarına seçkilərdə iştirak etmək (seçmək və seçilmək) uşaqların tərbiyəsi və təhsili ilə bağlı olaraq müxtəlif orqanlara müraciət etmək, müxtəlif dövlət və məhkəmə orqanlarında öz uşaqlarının qanun hüquqlarını müdafiə etmək.

39. Valideynlərin (onları əvəz edənlərin) vəzifələrinə daxildir:

Şagirdlərin fiziki və psixoloji sağlamlıqları, istedad, və qabiliyyətlərinin inkişafı qayğısına qalmaq, onların ləyaqətinə hörmət etmək, valideyin, Vətənə, ana dilinə, xalqına, onun tarixinə, ümumbəşəri dəyərlərə hörmət və məhəbbət hissi aşılamaq, uşaqların məktəbdə tərbiyə və təhsil almalarına qayğı göstərmək, xalqın ənənələrinə, qanunlara, insan hüquqlarına

hörmət hissi tərbiyə etmək, şagirdlərin dərsə dəvamiyyətinə nəzarət etmək, valideyn iclaslarında və məktəbin ictimai işlərində fəal iştirak etmək.

40. Şagirdlərin elmlərin əsaslarına yiyələnməsində, onlarda yüksək əxlaqi keyfiyyətlər tərbiyə edilməsində, məktəb və ailəyə kömək etmək məqsədilə peşə məktəbi və liseylərində valideyn komitələri yaradılır.

## IV. Mühəndis-pedaqoji kadrlar

41. Peşə məktəbi və peşə liseyinin mühəndis-pedaqoji işçilərinin fəaliyyəti şagirdlərin şəxsiyyətinin, ümumi mədəniyyətinin, fəallığının, müstəqilliyinin, məsuliyyətinin inkişafına və peşə hazırlığının yüksək səviyyədə təmin olunmasına yönəldilir.

42. Peşə məktəblərində və peşə liseylərində mühəndis-pedaqoji kadrların işə qəbulu və işdən azad olunması qüvvədə olan əmək qanunvericiliyinə müvafiq təhsil müəssisələrinin direktorları tərəfindən həyata keçirilir.

Mühəndis-pedaqoji kadrların seçilməsi, tərbiyəsi və ixtisasının artırılması üzrə işin daha da təkmilləşdirilməsi məqsədilə məktəblərdə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş Əsasnaməyə uyğun olaraq onların attestasiyası keçirilir.

Təhsil Qanununa müvafiq olaraq müəllimlərin həftəlik tarif stavkası 1995-ci il sentyabrın 1-dən etibarən 12 saat müəyyən edilir. İllik dərs yükü 1,5 stavkadan çox ola bilməz.

43. Peşə məktəbi və peşə liseyinin mühəndis pedaqoji işçiləri aşağıdakı hüquqlara malikdirlər:

- peşə şərəfi və ləyaqətini müdafiə etmək;
- normal iş şəraitinin yaradılmasını tələb etmək;
- təlimin forması, metod və vasitələrini seçməkdə, pedaqoji təşəbbüskarlıqda sərbəstlik;
- fərdi pedaqoji fəaliyyət azadlığı;
- peşə məktəbi və peşə liseyinin nizamnaməsinə uyğun olaraq təhsilin idarə olunmasında iştirak etmək;

- rəhbər vəzifələrə seçmək və seçilmək;

- ixtisasını artırmaq və yenidən ixtisaslaşmaq;

- qanunvericilik yolu ilə müəyyən edilmiş güzəşt və imtiyazlardan istifadə etmək.

44. Mühəndis – pedaqoji işçilərin vəzifələrinə daxildir:

- tərbiyə və təhsil alanların tədris və elmi araşdırma proqramlarını dövlət standartları səviyyəsində mənimsəmələrinə nail olmaq;

- əməyi və şəxsi nümunəsi ilə milli zəminə və ümumbəşəri sərvətlərə, bütün insanlıq üçün qiymətli olan mənəvi dəyərlərə, həqiqətə, ədalətə, sədaqətə, vətənpərvərliyə, humanizmə, rəhmdilliyə, əməksevərliyə, demokratikliyə, prinsipiallığa və başqa müsbət keyfiyyətlərə hörmət və məhəbbət aşılmaq;

- valideynə, ailəsinə, qadınlara, yaşlılara, uşaqlara, ətraf mühitə, bütövlükdə Azərbaycan təbiətinə, Azərbaycanın və Azərbaycan xalqının tarixinə, milli-mədəni dəyərlərinə dərin hörmət hissi aşılamaq;

- şagiridin ləyaqətinə, şərəfinə hörmət bəsləmək;

- şagirdləri fiziki və psixi zorakılığın bütün formalarından qorumaq, onları spirtli içkilər, narkotik maddələr işlətməkdən və digər zərərli vərdişlərdən çəkindirmək;

- müntəzəm olaraq öz peşə-ixtisas  səviyyəsini, praktiki hazırlığını, pedaqoji ustalığını, ümumi mədəniyyətini yüksəltmək, əlavə məşğələlər və sinifdənkənar tədbirlər keçirmək.

45. Peşə məktəbi və peşə liseyinin mühəndis pedaqoji işçilərinin hər bir kateqiriyasına mənsub olan üzvlərin hüquq və vəzifələri mövcud qaydada təsdiq olunmuş ixtisas xasiyyətnamələri ilə müəyyən edilir.

## V. Peşə məktəbi və peşə liseyinin idarə olunması.

46. Peşə məktəbi və peşə liseyi dövlət və ictimai özünüidarə prinsipləri əsasında idarə edilir və onun fəaliyyəti Təhsil Qanunu müvafiq qnunvericilik aktları, əsasnamələr, nizamnamələr digər normativ sənədlərlə tənzim olunur.

Məktəb özünüidarəsinin ali orqanı məktəbin ümumi yığıncağıdır (konfransdır). Konfransa peşə məktəbi və peşə liseyinin mühəndis-pedaqoji və digər işçilərinin, valideynlərin və baza müəssisələrinin nümayəndələri seçilir. Konfrans nümayəndələrinin yarısı məktəbdən, yarısı isə valideynlərdən və baza müəssisələrindən seçilir. Nümayəndələr bərabər həlledici səs hüququna malikdirlər. Konfransa fəal şagirdlərdən də nümayəndələr dəvət edilir.

Konfrans:

- birbaşa gizli səsvermə əsasında adi səs çoxluğu ilə məktəb şurasını, onun sədrini – məktəb direktorunu seçir. *

**Direktor məktəbin Nizamnaməsinə əsasən 5 il müddətinə (2 il müddətdən artıq olmayaraq) seçilir. Özünü doğrultmayan Nizamnaməyə əsasən geri çağırılır.

- "Təhsil Qanunu"na müvafiq olaraq məktəbin təkmilləşdirilməsini və inkişafının, təlim-tərbiyə prosesinin keyfiyyət və səmərəliliyinin yüksəldilməsinin əsas istiqamətlərini təsdiq edir, məktəbin maddi-texniki bazasını möhkəmlətmək və inkişaf etdirmək üçün büdcədənkənar gəlir hesabına əlavə maliyyə vəsaitlərinin verilməsini müəyyənləşdirir;

- zəruri hallarda peşə məktəbi və peşə liseyi işinin müxtəlif istiqamətləri üzrə müvəqqəti və daimi komissiyalar və qərargahlar yaradır, onların səlahiyyətlərinin işinin məzmununu müəyyən edir;

- məktəb direktorunun və digər məsul şəxslərin hesabatlarını dinləyir.

47. Konfranslar arasındakı dövrdə peşə məktəbi və peşə liseyi ali özünüidarə orqanı məktəb şurası hesab olunur. Məktəb şurasının fəaliyyəti müvafiq əsasnamə ilə tənzimlənir.

48. Təlim-tərbiyə prosesinin idarə edilməsini, peşə məktəbi və peşə liseyinin gündəlik fəaliyyətini direktor həyata keçirir.

Peşə məktəbi və peşə liseyinin direktoru müvafiq qaydada müəyyən olunmuş hüquq və vəzifələri dairəsində:

- məktəbin bütün fəaliyyətinə rəhbərlik edir, təlim-tərbiyə prosesinin təşkilini planlaşdırır, onun həyata keçirilməsinə nəzarət

edir. İşin keyfiyyəti və səmərəliliyi üçün məsuliyyət daşıyır, dövlət və ictimai orqanlarda onu təmsil edir;

- Mühəndis-pedaqoji işçilərinin yaradıcı surətdə fəaliyyət göstərmələri, sinifdənxaric və məktəbdənkənar işin təşkili üçün şərait yaradır;

- Məktəbin iş cədvəlini təsdiq edir, qüvvədə olan normativ sənədlərə əsasən işçilərin sayını və vəzifə maaşlarını müəyyən edir;

- Özünə tədris - istehsalat, təlim-tərbiyə, inzibati təsərrüfat işləri üzrə müavinləri, liseylərdə isə yuxarıda göstərilənlərdən əlavə ümumtəhsil fənləri üzrə təhsil hissə müdirini müəyyən olunmuş qaydada nazirliklə razılaşdırmaqla təyin edir.

- Məktəbin mühəndis-pedaqoji kadrlarını seçib yerləşdirir.

49. Təlim-tərbiyə prosesini inkişaf etdirmək və təkmilləşdirmək, mühəndis pedaqoji işçilərin pedaqoji ustalığını, yaradıcılıq və meylini yüksəltmək məqsədilə peşə məktəbində və peşə liseyində pedaqoji işçiləri birləşdirən kollektiv orqan-metodiki şura yaradılır.

Peşə məktəbi və peşə liseyində metodiki işlər Respublika Təhsil Nazirliyi tərəfindən təsdiq edilən əsasnaməyə uyğun olaraq aparılır.

50. Peşə məktəbi və peşə liseyində dövlət-psixoloji xidməti fəaliyyət göstərir. psixoloji xidməti məktəbin psixoloqu həyata keçirir və o öz statusuna görə pedaqoji işçilərə bərabər tutulur.

51. Peşə məktəbi və peşə liseyində iaşə xidmətinin təşkilinə Ticarət Nazirliyi və tabeçiliyində ticarət və ictimai iaşə müəssisəsi olan başqa nazirliklər idarə və təşkilatlar, onların yerlərdə olan nümayəndələri cavabdehdir. Tədris müəssisələri əlavə olaraq özləri də iaşə xidməti göstərə bilərlər. Yeməyin keyfiyyətinə dövlət nəzarətini səhiyyə orqanları həyata keçirir.

52. Təhsil prosesi üçün sağlam və təhlükəsiz şərait yaradılır. Milli idman növləri dirçəldilir, idman sağlamlıq komplekslərinin şəbəkəsi genişləndirilir.

## VI. Peşə məktəbinin və peşə liseyinin maliyyələşdirilməsi və maddi texniki bazası

53. Azərbaycan Respublikası Təhsil Qanununa uyğun olaraq peşə məktəbləri və peşə liseyləri əsasən respublika büdcəsindən maliyyələşdirilir.

Bundan başqa peşə məktəbi və peşə liseyi:

- müqavilə ilə fəhlələrin hazırlanmasına, yenidən hazırlanmasına, ixtisaslarının artırılmasına görə xərclərin ödənilməsi üzrə daxil olan vəsaitdən;
- müəyyən olunmuş qaydada verilən bank kreditlərindən;
- Azərbaycanın və xarici ölkələrin dövlət və hüquqi şəxslərdən, müəssisələrin, təşkilatların, cəmiyyətlərin, idarələrin, habelə vətəndaşların könüllü ayırmaları hesabına əlavə olunan vəsaitdən;
- məktəbin istehsalat fəaliyyətindən əldə olunan gəlirdən və s. vəsaitlərdən maliyyələşdirilə bilərlər.

Məktəbin müxtəlif mənbələrdən toplanmış gəliri toxunulmazdır.

54. Peşə məktəbinin və peşə liseyinin saxlanması üçün nazirlik tərəfindən ayrılmış vəsaitin xərclənməsi məktəb şurası ilə razılaşdırılaraq direktorun təsdiq etdiyi vahid smeta üzrə həyata keçirilir.

55. Peşə məktəbi və peşə liseyinin maddi-texniki bazasına binalar, qurğular, təlim təsərüffatı, avadanlıqlar, müxtəlif alətlər, təlimin əyani və texniki vasitləri və s. aiddir.

Peşə məktəbləri və peşə liseylərinin tədris maddi bazasının (tədris kabinetləri, laboratoriyaları, emalatxanaları, təlim təsərrüfatları və s.) təşkili, qurulması və təchizatı Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş normativ sənədlər əsasında təmin edilir.

56. Peşə məktəbi bə peşə liseyi bir qayda olaraq nəzəri və praktiki dərslərin keçirilməsi üçün yararlı olan tədris bazasından, ictimai iaşə üçün bloklardan, idman sağlamlıq obyektlərindən, oxu zalı olan kitabxanadan, şagirdlər üçün yataqxanadan, əməkdaşlar üçün yaşayış binasından və s. ibarət kompleks olmalıdır.

Peşə məktəbi və peşə liseyinin maddi-texniki bazası yalnız birbaşa təyinatı üzrə istifadə olunur.

57. Peşə məktəbi və peşə liseyinin maddi-texniki təchizatı, onların avadanlıq və binalarının təmiri dövlət tərəfindən mərkəzləşdirilmiş qaydada həyata keçirilir.

58. Peşə məktəbi və peşə liseyi onlar üçün müəyyən edilmiş kargüzarlıq, arxiv, mühasibat və statistik uçot – hesabat işləri aparır, öz fəaliyyəti barədə yuxarı təşkilatlara hesabat verir.

## VII. Beynəlxalq əlaqələr

59. Peşə məktəbi və peşə liseyi Azərbaycan Respublikası Təhsil Nazirliyinin xətti ilə peşə təhsili üzrə beynəlxalq əlaqələrdə iştirak edir.

Peşə məktəbi və peşə liseyi mühəndis-pedaqoji işçiləri və şagirdləri dövlətlərarası müqavilələrdə, əlaqələrə və razılaşmalara uyğun olaraq Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən verilən normalar və tapşırıqlar əsasında ixtisaslarını artırmaq üçün xaricə göndərmək, təcrübə mübadiləsi aparmaq, təcrübə keçmək, müsabiqə və başqa tədbirlərdə iştirak etmək üçün seçib hazırlayır.

Peşə məktəbi və ya peşə liseyi xarici ölkələrin təhsil ocaqları ilə əlaqələr yaratmaq, əməkdaşlıq formalarını qarşılıqlı fayda əsasında həyata keçirmək hüququna malikdirlər.

60. Ehtiyac olduqda Azərbaycan Respublikası Təhsil Nazirliyinin xətti ilə peşə məktəbində və peşə liseyində işləmək üçün xarici ölkələrin mütəxəssisləri dəvət oluna bilərlər.

61. Xarici ölkələrdə yaşayan azərbaycanlılar peşə məktəblərinə və peşə liseylərinə sərbəst surətdə qəbul oluna bilərlər.

Peşə məktəbində və peşə liseyində təhsil alan əcnəbilərin təhsil sahəsində hüquq və vəzifələri Azərbaycan Respublikası vətəndaşlarının hüquq və vəzifələri ilə eynidir. Xarici şagirdlər üçün Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə razılaşdırılmış başqa təhsil qaydaları və şərtləri nəzərdə tutula bilər.